Liseyin "Bərbər" ixtisası üzrə tədris qrupunda təhsil alan şagird və məzunları tərəfindən Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 nömrəli ümumi orta internat məktəbin 100 nəfər şagirdinə bərbər xidmətləri göstərilib.

Qeyd edək ki, Təhsil Nazirliyinin Müasir Azərbaycan Peşəkarları Layihəsi çərçivəsində 18 nömrəli Bakı Peşə Liseyində "Bərbər" ixtisası tədris olunur. Kadr hazırlığı "Eldar-studio" şirkətinin peşəkar mütəxəssislərinin iştirakı ilə aparılır. Şagirdlər ən müasir avadanlıqlarla təchiz olunmuş tədris emalatxanasında təcrübi bilik və bacarıqlara yiyələnirlər.